*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 22 (563)

16 noyabr 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 17 noyabr Azərbaycanda Milli Dirçəliş Günüdür

## Xalqın istiqlal mübarizəsinin əsas mərhələlərindən biri olan 17 noyabr – Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb

**Mənəvi əsaslarını və başlanğıcını XX əsrin 60-cı illərindən götürən bu tarix sonralar Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter almış, müstəqil Azərbaycan müasir inkişaf yoluna qədəm qoymuşdur.**



Keçən əsrin axırlarında dünyanın altıda birini əhatə edən Sovet İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsılmışdı. İmperiyanın siyasi "beyin mərkəzi"nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Dağlıq Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başladı. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən Milli Lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də Ulu Öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bununla Milli Liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı.

Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

**AZƏRTAC**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 13-də Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosu qəbul edib.***



Qonağı salamlayan nazir yeni təyinat münasibəti ilə onu təbrik edib, ölkəmizdəki diplomatik işində ona uğurlar arzulayıb, fəaliyyəti müddətində Azərbaycan-Fransa münasibətlərinin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirib.

İkitərəfli münasibətlərin zəngin ənənələrə malik olduğunu, bu əlaqələrin qurulmasında Ulu Öndər Heydər Əliyevin danılmaz xidmətlərini məmnunluqla xatırladan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkələrimiz və xalqlarımız arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, qarşılıqlı faydalı işbirliyinin nəinki qorunub-saxlanılmasına, davamlı və hərtərəfli inkişafına da böyük önəm verdiklərini, bu ali diqqət, eləcə də dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində Azərbaycan-Fransa əməkdaşlığının bütün sahələrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb.

Sonra fransalı diplomata müstəqilliyin ilk illərində ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi hadisələr, xalqın tələbilə Ulu Öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışı, onun rəhbərliyi altında həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin bərpası, kriminogen durumun nəzarətə götürülməsi barədə məlumat verilib, ölkəmizin Avropaya inteqrasiya etdiyi, demokratik prinsiplərə söykənən, polisin fəaliyyətini tənzimləyən yeni qanunlar qəbul olunduğu, bu işdə bir sıra inkişaf etmiş dövlətlərin, beynəlxalq təşkilatların, o cümlədən, fransalı mütəxəssislərin böyük rolu olduğu, həmin qanunların icrasının mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Daxili İşlər nazirlikləri arasında mövcud əlaqələrdən söz açan nazir V.Eyvazov bu əməkdaşlığın, əsasən, Fransanın daxili təhlükəsizlik məsələləri üzrə ölkəmizdə akkreditə olunmuş regional attaşesi vasitəsilə həyata keçirildiyini, ölkəmizə səfərləri zamanı qarşılıqlı faydalı işbirliyinə dair onlarla dəfələrlə müzakirələr aparıldığını xatırladıb. Bu əməkdaşlıq çərçivəsində müxtəlif illərdə Bakı şəhərində keçirilmiş təlimlərdə daxili işlər orqanlarının ümumilikdə 57 əməkdaşı iştirak edib. Əməkdaşlığın davamı olaraq, cari il noyabrın 11-də Bakıdan başlayan, hazırda Tbilisi şəhərində davam edən "Narkotik vasitələrə qarşı mübarizədə nəzarətli çatdırma" adlı praktik təlimdə ölkəmizin müvafiq dövlət orqanlarının əməkdaşlarından ibarət heyətin də iştirak etdiyi qeyd olunub.

Cənab V.Eyvazov "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Fransa Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" layihəsinin hazırlanaraq müvafiq dövlət orqanları ilə razılaşdırıldıqdan sonra qarşı tərəfə təqdim olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərildiyini, həmin sənədin imzalanmasının əlaqələrin daha da inkişafına əlverişli hüquqi zəmin yaradacağına əminliyini ifadə edib.

Azərbaycanın sabitliyin və təhlükəsizliyin uzun illər ərzində etibarlı qorunduğu və bunun məntiqi nəticəsi olaraq beynəlxalq tədbirlərin mütəmadi keçirildiyi ölkələrdən biri olduğunu nəzərə çatdıran nazir bununla yanaşı, tək respublikamızın deyil, dünyanın bir çox dövlətlərinin narahatlığına səbəb olan terrorçuluğun, ekstremizmin, narkotiklərin qanunsuz dövriyyəsinin, insan alverinin, qanunsuz miqrasiyanın, kibercinayətkarlığın və digər transmilli cinayətlərin təhlükəsinin hələ də real olduğunu, belə qlobal xarakterli təhlükələrlə mübarizədə səylərin birləşdirilməsinin zəruriliyini vurğulayıb.

Səfir Zakari Qros səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, ölkəmizdə tolerantlıq mühitinin, multikultural dəyərlərin hökm sürməsindən məmnunluğunu, fəaliyyəti dövründə ikitərəfli əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

2_Layout 1 15.11.2019 10:33 Page 1



# DAXİLİ QOŞUNLARIN KOMANDANI TÜRKİYƏ JANDARM ZABİTLƏRİNİ QƏBUL EDİB

**Noyabrın 6-da Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunlarda ezamiyyət müddəti başa çatan Daxili Qoşunlar komandanının müşaviri polkovnik Ömər Karabulutu və Daxili Qoşunlarda xidmətə yeni təyin olunan polkovniklər Mehmet Ali Bayer və Ali Rıza Gümüşü qəbul edib.**



Daxili Qoşunlar ilə Jandarm Təşkilatı arasında əməkdaşlıq əlaqələrinin son illər daha da inkişaf etdiyini vurğulayan general-leytenant Ş.Məmmədov Azərbaycan və Türkiyə Respublikaları arasında olan qarşılıqlı xoş münasibətlərdən danışıb, Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb.

Polkovnik Ömər Karabulut, öz növbəsində, Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnun olduğunu ifadə edərək, bu müddət ərzində ona göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların komandanına dərin minnətdarlığını bildirib.

General-leytenant Ş.Məmmədov, həmçinin, Daxili Qoşunlar komandanının müşaviri vəzifəsini icra edəcək polkovnik Mehmet Ali Bayerə və Ali Hərbi Məktəb rəisinin müşaviri vəzifəsini icra edəcək polkovnik Ali Rıza Gümüşə qarşıdakı fəaliyyətlərində uğurlar arzulayıb.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

Qonaqlar səmimi qəbula və diqqətə görə Daxili Qoşunların komandanına minnətdarlıqlarını bildiriblər. Görüşün sonunda polkovnik Ö.Karabuluta "Xidmətdə fərqləndiyinə görə" döş nişanı təqdim edilib və xatirə şəkli çəkilib.

**Mətbuat xidməti**

# XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN HƏRBİ ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

**Noyabrın 9-da Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili Qoşunların Baş İdarəsindən yüksək rütbəli zabitlər, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.**



Mərasim Milli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Nümunəvi Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.



Tədbirdə çıxış edən hərbi hissə komandirləri əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıblar.

Sonra Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları qeyd edilib. Bundan əlavə, məktubda Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər gənc əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daima Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Tədbirdə, həmçinin, ulularımızdan bizə miras qalmış mərdlik, igidlik və cəsurluq kimi xüsusiyyətləri özündə cəmləşdirən Azərbaycan əsgərinin Vətənin layiqli müdafiəçisi, Azərbaycan xalqının ümid yeri olduğu da fəxr hissi ilə vurğulanıb.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**baş leytenant Xədicə Hacızadə**

# NÜMUNƏVİ GÖSTƏRİCİ HƏRBİ ORKESTR ÖTƏN 25 İLDƏ ZƏNGİN YARADICILIQ YOLU KEÇİB



Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Nümunəvi Göstərici Hərbi Orkestrinin yaradılmasından 25 il ötür. 1994-cü il noyabrın 17-də formalaşmasının əsası qoyulan orkestr ötən dövrdə təqdirəlayiq yol keçib, yaddaqalan uğurlara imza atıb. Qeyd edim ki, özünəməxsus yaradıcı dəst-xətti, peşəkar ifası və zəngin repertuarı ilə fərqlənən orkestrin bu günədək çoxşaxəli fəaliyyətinin əsas qayəsini qoşunların şəxsi heyətinin vətənpərvərlik tərbiyəsinin, mədəni-estetik səviyyəsinin yüksəldilməsinə töhfə vermək təşkil edib. Ötən illərdə orkestrdə xidmət etmiş və hazırda xidmət edən hərbi qulluqçuların bu işdə yaradıcı əməyi müsbət cəhətdən xarakterizə oluna bilər.

Nümunəvi Göstərici Hərbi Orkestr indiyədək iştirak etdiyi bütün tədbirlərdə Daxili Qoşunları layiqincə təmsil edərək, onun nüfuzunu həmişə uca tutub. Respublikamızda mövcud olan hərbi orkestrlər arasında bizim orkestr öz yaradıcılıq töhfələri ilə qabaqcıl mövqeyə yiyələnib, ictimaiyyətin və hərbi kollektivlərin rəğbətini qazanıb.

Xüsusi vurğulamaq lazımdır ki, Nümunəvi Göstərici Hərbi Orkestrin fəaliyyəti Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazovun və Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun xüsusi diqqət mərkəzindədir. Orkestrin kollektivi üçün yaradılmış hərtərəfli şərait Daxili İşlər nazirinin və Daxili Qoşunlar komandanının şəxsi heyətə göstərdiyi böyük qayğının təzahürüdür.

Bu gün orkestr zəruri musiqi alətləri, səs və səhnə avadanlıqları, spesifik geyim dəsti ilə təchiz olunub. Onun repertuarında müxtəlif musiqi janrlarına, Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərinə müraciət olunur, milli mahnılar və hərbi marşlar isə çıxışlarda xüsusi yer tutur.

Burada xidmət edən hərbi qulluqçulardan orkestr rəisinin müavini - mahnı ansamblının rəisi mayor Cahangir Qurbanov, orkestrdə hərbi dirijor kapitan Zaur Əmiraslanov, orkestrin mahnı ansamblında konsertmeyster gizir Vəsilə İbrahimova Əməkdar artist, orkestrin mahnı ansamblında hərbi dirijor - ansambl rəisinin müavini kapitan Fidan Hacıyeva Naylor isə Xalq artisti fəxri adlarına layiq görülüblər. Orkestrdə musiqiçi işçi Amil Məmmədov Prezident təqaüdü ilə mükafatlandırılıb.

Hər il Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən ifaçıların və musiqiçilərin qatıldıqları "Hünər" vətənpərvərlik mahnıları festivalında orkestrin hərbi qulluqçuları gizir Vüqar Mövlayev və baş çavuş Sadıq Məlikov qalib yerləri tutublar.

Nümunəvi Göstərici Hərbi Orkestrin rəisi - hərbi dirijor mayor Hüseyn Əliyev Bülbül adına musiqi məktəbinin və Bakı Musiqi Akademiyasının məzunudur. O, 1999-cu ildən etibarən Daxili Qoşunların sıralarında, orkestrin tərkibində xidmət edir. Əsgərdən mayor hərbi rütbəsinədək, musiqiçi vəzifəsindən orkestrin rəisi vəzifəsinədək yüksəlib. Hərbi xidmət sahəsinə aid bir sıra medallarla təltif olunub. Orkestrdə bu günədək fəaliyyəti dövründə bütün bilik və bacarığını bu yaradıcı kollektivin inkişafına yönəldib.

Söhbət zamanı mayor H.Əliyev bildirdi ki, orkestr 25 illik yubileyini yüksək yaradıcılıq əzmi və nailiyyətləri ilə qarşılayır. Peşəkar musiqiçilərin xidmət etdiyi orkestr həmişə öz fəaliyyəti ilə komandanlığın etimadını doğrultmağa çalışıb, qoşunların həyatında öz missiyasını vicdanla yerinə yetirib, hərbi musiqi ənənələrimizin layiqincə davam etdirilməsində əməyini əsirgəməyib. Bu gün də orkestrin şəxsi heyəti öz mənəvi amalına sadiqdir.

Mayor H.Əliyev Nümunəvi Göstərici Hərbi Orkestrin fəaliyyətində müsbət cəhətdən fərqlənən, üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirən hərbi qulluqçulardan orkestr rəisinin müavini - hərbi dirijor baş leytenant Mail Mailov, mahnı ansamblında hərbi dirijorlar baş gizir Səbuhi Allahverdiyev, gizir Elşad Cəfərov, konsertmeysterlər: baş gizir Əfqan Güləliyev, baş gizir Aleksandr Nəbiyev, gizir Ruslan Rüstəmov, gizir Rabil Abbasov, gizir Rəşad Mirzəyev, solist baş çavuş Razi Mustafazadənin adlarını qeyd etdi. Onların sənətkarlıq nöqteyinəzərdən əzmkarlığını da vurğuladı.

25 yaşı tamam olan Nümunəvi Göstərici Hərbi Orkestrin bu günədək qoşunların əsgərlərinin və kursantlarının hərbi andiçmə mərasimlərindəki ifası, əlamətdar günlərdə çıxışları, hərbi hissələrdə təqdim etdiyi konsertlər hərbi qulluqçularımıza ruh yüksəkliyi aşılayıb, onların yaddaşında silinməz iz buraxıb.

İnanırıq ki, Nümunəvi Göstərici Hərbi Orkestrin yaradıcılıq uğurları davamlı olacaqdır.

**Yalçın Abbasov**

## *İdman*

# Daxili Qoşunların birinciliyi uğrunda əlbəyaxa döyüş üzrə yarış keçirilib

"2019-cu ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı"na və Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanının müvafiq əmrinə əsasən, noyabrın 9-da 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda əlbəyaxa döyüş üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən və hərbi hissələrdən 6 komanda üzrə 42 nəfər hərbi qulluqçu iştirak edib.




Yarışın təşkili və keçirilməsi üçün aşağıdakı tərkibdə hakimlər kollegiyası təyin olunub: baş hakim - polkovnik Vurğun Abbasov, katib - mayor Mehman Nəsibov, döşək üzrə hakim - İdman komandasında məşqçi - müəllim baş leytenant İlqar Nəcəfli, yarışın həkimi - sanitar-təlimatçı baş çavuş Müslüm Hümmətzadə.

Şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:

**65 kq çəki dərəcəsində**

I yer - kiçik çavuş Rizvan Sultanov (AHM);
II yer - kursant Taleh Məmmədov (AHM);
III yer - çavuş Nurlan Hacıyev (67987 saylı hərbi hissə).

**70 kq çəki dərəcəsində**

I yer - baş çavuş Nəriman Əhmədov (67987 saylı hərbi hissə);
II yer - çavuş Taleh Nəbiyev (99713 saylı hərbi hissə);
III yer - əsgər Amin Alırzayev (16075 saylı hərbi hissə).

**75 kq çəki dərəcəsində**

I yer - kursant Səbuhi Tağıyev (AHM);
II yer - baş çavuş Elnur Züliyev (67987 saylı hərbi hissə);
III yer - çavuş Əziz Qurbanov (AHM).

**80 kq çəki dərəcəsində**

I yer - gizir Tural Süleymanov (67987 saylı hərbi hissə);
II yer - gizir Amil Bəşirli (16075 saylı hərbi hissə);
III yer - əsgər İsrafil Musasoylu (99713 saylı hərbi hissə).

**85 kq çəki dərəcəsində**

I yer - çavuş Ceyhun Qafarov (16075 saylı hərbi hissə);
II yer - çavuş Əli Bayramov (16075 saylı hərbi hissə);
III yer - kiçik çavuş Əli Quluyev (99713 saylı hərbi hissə).

**90 kq çəki dərəcəsində**

I yer - əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə);
II yer - çavuş Maxsud Talıbxanlı (67987 saylı hərbi hissə);
III yer - əsgər İlkin Qocayev (16076 saylı hərbi hissə).

**90 kq çəkidən yuxarı dərəcədə**

I yer - çavuş Rafiq Təhməzov (67987 saylı hərbi hissə);
II yer - baş leytenant Rövşən Hüseynov (16075 saylı hərbi hissə);
III yer - çavuş Nurlan Balakişiyev (99713 saylı hərbi hissə).

**Komanda üzrə 99713 saylı hərbi hissə 28 xalla ilk pillədə qərarlaşıb. 16075 saylı hərbi hissə və Ali Hərbi Məktəb isə 24 və 18 xal qazanmaqla, müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər.**

**gizir Ariz Aslanov**

# VƏTƏNƏ SƏDAQƏTLƏ XİDMƏT EDƏN QADIN HƏRBİ QULLUQÇUMUZ

Daxili Qoşunların sıralarında savadı, bacarığı və işgüzarlıq keyfiyyətləri ilə fərqlənən qadın hərbi qulluqçularımız xidmət edirlər.

Bu sayımızda məhz elə bu xüsusiyyətləri özündə cəmləşdirən 17077 saylı hərbi hissənin qadın hərbi qulluqçusu çavuş Günel İbrahimova barədə oxucularımıza məlumat vermək istəyirəm. O, 1983-cü il iyunun 21-də Neftçala rayonunda anadan olub. Neftçala rayonunun Xıllı qəsəbəsində yerləşən 1 saylı orta məktəbi 2000-ci ildə bitirib. Elə həmin ildə Şirvan şəhərində yerləşən Sənaye Texnikumuna qəbul olunub.

Daxili Qoşunlara gəlişi 2014-cü ilə təsadüf edir. Belə ki, Daxili Qoşunların 17077 saylı hərbi hissəsində maddi-texniki təminat xidmətlərində avtomobil xidmətinin kargüzarı kimi müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hazırda hərbi hissədə məsul icraçı vəzifəsindədir.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayev onun bir hərbi qulluqçu kimi olduqca müsbət keyfiyyətlərə malik olduğunu vurğuladı.

İki qız anası, ləyaqətli həyat yoldaşı olan çavuş G.İbrahimova ilə danışarkən onda əsl Azərbaycan qadınına xas xüsusiyyətlərin formalaşdığını, öz ailəsi və xidməti vəzifəsi ilə fəxr etdiyini görmək olur. Hərbi xidmətdə olduğu üçün qürur duyduğunu deyən qadın hərbi qulluqçumuz iş qabiliyyətinə, intizamına, özünə qarşı tələbkarlığına görə seçilir, kollektivdə xüsusi hörmətə malikdir. Sənədlərin qəbulu, dövriyyəsi və saxlanılmasına diqqətlə yanaşır. Xidmət



etdiyi müddət ərzində hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Vətənpərvər hərbi qulluqçumuza xidmətində uğurlar arzulayır və hər zaman öz peşə borcuna ləyaqətlə yanaşmasını diləyirik.

**baş leytenant
Nigar Ağayeva**

3_Layout 1 14.11.2019 18:05 Page 1



# “HƏRBİ HİSSƏMİZ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARIN İCRASINA HƏR AN HAZIRDIR”

**Noyabrın 5-dən 7-dək DQBİ-nin Şəxsi heyət üzrə İdarəsinin məqsədli qrupunun tərkibində Gəncə şəhərinə ezam olunmağımın başlıca məqsədi 17072 saylı hərbi hissənin həyat və fəaliyyətini, bölmələrin nümunəvi xidmətini “Əsgər” qəzetində işıqlandırmaq idi.**

**Əvvəlcə onu qeyd edim ki, dahi Nizami yurdu kimi məşhur olan qədim Gəncə bu gün öz tarixi simasını qoruyub saxlamaqla, Azərbaycanın ikinci böyük abad şəhəri kimi əsl inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Qızıl payızın son günlərini yarpaqlarında əks etdirən qocaman Şərq çinarları ilə yanaşı əkilmiş həmişəyaşıl şam və küknar ağaclarının birgə harmoniyası şəhərin ümumi görünüşünə xüsusi yaraşıq verirdi.**





**Daxili Qoşunların digər hərbi hissələrində olduğu kimi, bu hərbi hissəmizdə də şəxsi heyətin xidmət aparması üçün hər bir şərait mövcuddur. Hərbi qulluqçularda müşahidə olunan yüksək döyüş hazırlığı və möhkəm hərbi intizam hissənin qarşıya qoyulmuş tapşırıqları yerinə yetirməyə hər an hazır olduğunu deməyə əsas verir.**



Hərbi hissə komandiri polkovnik Alim İsmayılov bizimlə söhbət zamanı xidməti-döyüş fəaliyyəti barədə geniş məlumat verərək, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə hər an hazır olduqlarını qeyd etdi: “Hərbi hissəmiz hələ 1989-1991-ci illərdə yerləşdiyi regionda erməni separatçılarının silahlı dəstələrinə qarşı xüsusi əməliyyatlarda, eləcə də sərhəd məntəqələrində təhlükəsizliyin təmin olunmasında fəal iştirak etmişdir.

Ümumilikdə, hərbi hissəmizin şəxsi heyəti Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda Kəlbəcər, Ağdərə, Ağdam və Füzuli rayonları ərazisində gedən döyüşlərdə əsl qəhrəmanlıq nümunəsi göstərmiş, hərbi anda sadiq olduqlarını öz canları və qanları bahasına sübut etmişlər. 1992-ci ilin ikinci yarısını əhatə edən dövrdə Ağdərə rayonunun bir çox yaşayış məntəqəsinin düşmən tapdağından azad olunmasında hərbi hissənin xüsusi rolu olmuşdur. Bu rayonun Sərsəng su anbarının yaxınlığında yerləşən Aterk (indiki Həsənriz - A.Ə.) kəndi uğrunda ağır döyüşdə hərbi hissənin onlarla hərbi qulluqçusu mühasirəyə düşərək şəhidlik zirvəsinə ucalmışdır.

Bütövlükdə, müharibə dövründə hərbi hissənin yüzlərlə hərbi qulluqçusu şəhid olmuş, itkin düşmüş və yaralanmışdır.

Hərbi hissənin iki nəfər hərbi qulluqçusu - kapitan Ənvər Arazov və çavuş İqor Makeyev ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülmüşlər”.

O, şəxsi heyətin hərbi hissənin yerləşdiyi qərb regionunda vətəndaşlarımızın əmin-amanlığının, eləcə də qanunçuluğun bərqərar olması üçün hər zaman qətiyyətlə xidmət apardığını bildirdi: “Hərbi hissənin yerləşdiyi region döyüş bölgəsinə yaxın olduğundan, bölgədə ictimai asayişin və sabitliyin qorunub saxlanılması ilə yanaşı, əsas vəzifələrimizdən biri də qəflətən qarşıya çıxan tapşırıqların icrasına hər an hazır olmağımızdır. Bildiyiniz kimi, 1993-cü ilin məlum iyun hadisələri və sonrakı proseslər zamanı hərbi hissə ağır sınaqlarla üz-üzə qalmışdır. Ölkədaxili sabitliyə qarşı müxtəlif təxribatların qarşısının alınmasında, cinayətkar dəstələrin zərərsizləşdirilməsində şəxsi heyət cəsarət göstərmiş, dövlətçilik əqidəsinə sadiq olmuşdur.

Hərbi qulluqçularımız ötən dövrdə dislokasiya yeri və ətraf rayonların ərazisində ictimai asayişin və təhlükəsizliyin qorunmasında daxili işlər orqanları ilə birgə qarşıya qoyulan xüsusi tapşırıqları uğurla yerinə yetirmişlər. Bununla yanaşı, şəxsi heyət kütləvi tədbirlər zamanı üzərinə düşən vəzifələrin öhdəsindən də layiqincə gəlmişdir. Hərbi hissəmiz bu gün də qarşıya qoyulmuş tapşırıqların icrasına hər an hazırdır”.

Polkovnik A.İsmayılov bu məqsədlə bölmələrin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasına ciddi fikir verildiyini qeyd edərək, bunun üçün hərbi hissədə hər cür şəraitin yaradıldığını bildirdi.

## Xüsusi təyinatlı dəstə hər zaman öndədir

“Pələng” şərti adı verilmiş xüsusi təyinatlı dəstə hərbi hissənin yüksək döyüş hazırlığı və möhkəm hərbi intizamı ilə fərqlənən bölmələrindəndir. Qeyd edək ki, bu dəstə 2016-2018-ci illərin ümuminspeksiya yoxlamasının nəticələrinə görə Daxili Qoşunların xüsusi təyinatlı bölmələri arasında ardıcıl olaraq üç dəfə birinci yeri qazanmağa müvəffəq olub. Bundan əlavə, qeyd olunan dövr ərzində qoşunlar üzrə snayper və xüsusi həmlə qrupları arasında keçirilən yarışlarda dəstənin şəxsi heyəti uğurlu nəticələr göstərib. Məhz bu uğurların davamı olaraq, 2019-cu ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekununa görə xüsusi təyinatlı dəstə hərbi hissənin tabor və dəstələri arasında 1-ci yerə layiq görülüb. Qazandığı bu nailiyyətə görə dəstə hərbi hissə komandirinin əmri ilə “Kubok” və müvafiq dərəcəli “Fərman”la mükafatlandırılıb.



Dəstənin şəxsi heyəti atəş və fiziki hazırlıq, eləcə də silahlı cinayətkarların zərərsizləşdirilməsi mövzusu üzrə keçirilən praktiki təlimləri böyük həvəslə yerinə yetirir. Ümumiyyətlə, istənilən hava şəraitində qarşıya qoyulmuş tapşırıqları vaxtında yerinə yetirmək xüsusi təyinatlıların bir nömrəli vəzifəsi hesab olunur. Bu, ilk növbədə, hər bir xüsusi təyinatlıdan yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və “dəmir” iradə tələb edir. Onların təlimlərini izləyərkən, sadalanan bu keyfiyyətlərin “pələnglərin” xarakterində formalaşdığının şahidi oldum.



Dəstə komandiri mayor Zaur Rəhimov xüsusi təyinatlıların hazırlığını yüksək qiymətləndirərək, onların döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduqlarını diqqətə çatdırdı: “Dəstənin qarşısında duran başlıca vəzifələrdən biri də vətəndaşların qanunla müəyyən olunmuş hüquqlarını, azadlıqlarını və həyatını cinayətkar qəsdlərdən qorumaq, həmçinin, zərurət olduqda Vətənimizin ərazi bütövlüyünün müdafiəsində iştirak etməkdir.

Bu baxımdan şəxsi heyətlə keçirilən məşğələlər zamanı onların bilik və bacarıqlarını artırmalarına xüsusi diqqət yetirilir. Əsas etibarilə atəş və fiziki hazırlıq məşğələlərinə, həmçinin, gördüyünüz kimi, silahlı cinayətkarların axtarılması və zərərsizləşdirilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Bundan əlavə, müvafiq təlim proqramına uyğun olaraq, şəxsi heyətin hərbi biliklərinin artırılması məqsədilə digər məşğələlərin keçirilməsinə də diqqətlə yanaşılır. Keçirilən praktiki məşğələlər, öz növbəsində, xüsusi təyinatlıların peşə vərdişlərinin artırılması baxımından əhəmiyyətli dərəcədə böyük rol oynayır”.



Mayor Z.Rəhimov məşğələlər zamanı yüksək çalışqanlıq göstərən, nizam-intizamı və nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçuların adlarını qeyd etdi. Mayor Ələsgər Muxtarov, baş leytenant Qurban Səfərli, gizir Pərvin Rəhimli, gizir Vüsal Əhədov, baş çavuş Yasin Qasımov, çavuş Həsən Şəmsiyev və MAXE əsgər Rahim Mehdiyev dəstədə əzmkar və peşəkar xüsusi təyinatlılar kimi xarakterizə edilirlər.

Dəstə komandiri, həmçinin, xüsusi təyinatlılarla aparılan tərbiyə işi tədbirləri barədə də ətraflı məlumat verdi. Bildirdi ki, dəstənin qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi xüsusi təyinatlıların birgə fəaliyyətindən çox asılıdır. Bu məqsədlə şəxsi heyətlə aparılan tərbiyə işi tədbirlərinin əsas özəyinin dəstədə hərbi intizamın möhkəmləndirilməsi, hərbi-vətənpərvərlik ruhunun aşılanması və kollektivdə yoldaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsindən ibarət olduğunu qeyd etdi.

## Döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq əsas vəzifəmizdir

Hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də polkovnik-leytenant İlham İsmayılovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq dəstənin komandir heyətinin əsas vəzifələrindən biridir.

Polkovnik-leytenant İ.İsmayılov tabeliyində olan bölmələrin ümumi fəaliyyətini təhlil edərək, dəstənin qarşısına qoyulmuş vəzifələrə geniş aydınlıq gətirdi. O, keçirilən bütün təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin yalnız bir məqsədə - hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmasına xidmət etdiyini bildirdi: “Şəxsi heyətin öz vəzifələrini yüksək səviyyədə və nümunəvi yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, dəstənin döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaqla, tapşırılmış vəzifələri yerinə yetirməyə hər zaman hazır olmağımızdır”.

Dəstə komandiri şəxsi heyətin bilik səviyyəsinin və peşə vərdişlərinin artırılmasının bu baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı. O, rütbə və vəzifəsindən asılı olmayaraq, dəstədə xidmət edən hər bir hərbi qulluqçunun öz vəzifə borcunu şüurlu surətdə dərk etdiyini və gündəlik xidməti fəaliyyətində verilən tapşırıqları nümunəvi şəkildə yerinə yetirməyə çalışdığını diqqətə çatdırdı.

Polkovnik-leytenant İ.İsmayılov təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, hazırda qrup və yarımqrup komandirlərinin, həmçinin, sürücü heyətinin hazırlığına da xüsusi önəm verdiklərini qeyd etdi.

Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizam və kollektivdə qarşılıqlı sağlam münasibətlər mühüm rol oynayır.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Kəmaləddin Məmmədov dəstədə təşkil olunan söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və s. kimi çoxşaxəli tərbiyə işi tədbirlərinin də əsasını məhz bu amillər təşkil etdiyini bildirdi. O, bu baxımdan şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinin və hərbi intizamının möhkəmləndirilməsinin vacib olduğunu diqqətə çatdırdı: “Dəstə böyük kollektiv deməkdir. Kollektivdə qarşılıqlı münasibətlərin düzgün istiqamətdə təşkil olunması mühüm əhəmiyyət kəsb edir. Əsas diqqət də məhz xidmətə yeni qəbul olunmuş müddətdən artıq xidmət edən hərbi qulluqçularla keçirilən tərbiyə işinə yönəldilib. Yeni gəlmiş silahdaşlarımızın mənəvi-psixoloji durumunun dərindən öyrənilməsi və xidmətə tez bir zamanda hazırlanması vacib şərtlərdən biridir. Bölmələrin komandir heyətinin bu məsələlərə ciddi yanaşması, ümumilikdə, dəstənin nailiyyət qazanmasına öz müsbət təsirini göstərir”.






Mayor K.Məmmədov hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Surxay Məmmədovun bu baxımdan böyük köməklik göstərdiyini və komandir heyətinə lazımi istiqamət verdiyini dedi.

Dəstə komandirinin müavini təlim və məşğələlərdə çalışqan olan, nümunəvi xidmətilə fərqlənən, öz işinə məsuliyyətlə yanaşan hərbi qulluqçuların adlarını da qeyd etməyi unutmadı. Bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Samir Cəbrayılov, qrup komandiri leytenant İbrahim Əliyev, yarımqrup komandirlərindən gizir Nurqələm Məhərrəmov, gizir Münasib Əliyev, bölmənin başçavuşu gizir Şahin Salmanov və baş atıcı baş çavuş Namiq Ramazanov məhz belələrindəndir.

**mayor Anar Əhmədov**

# İnformasiya texnologiyaları dövrü: inkişaf təzahürləri və riskli məqamlar...

XXI əsri informasiya texnologiyaları əsri adlandırırlar. Həqiqətən də dünyada müşahidə olunan informasiya texnologiyalarının sürətli inkişafı sosial cəhətdən aktiv hər bir insanın və bütövlükdə, zamanın nəbzini tutan cəmiyyətlərin həyatında yeni reallıqlar ortaya çıxarır. Bu yeni reallıqlar nədən ibarətdir? İlk növbədə qeyd etmək lazımdır ki, insanlar və cəmiyyətlər arasında təmas yaradan informasiyanın hazırlanması, ötürülməsi və emalı prosesini əvvəlki illərə nisbətən sürətləndirən texnologiyalar meydana gəlib. Həmin texnologiyalar insanın gündəlik həyatında, iş fəaliyyətində vacib rol oynayır, onun təfəkkürünə, psixologiyasına, vərdişlərinə nüfuzedici təsir göstərir.

İnsan intellekti tarixən bəşəriyyəti tərəqqiyə yönəldən, gələcəyə istiqamətlənən kəşflərin həyata yol tapdığı mənbə kimi qəbul olunub. Bu gün artıq süni intellektin formalaşma prosesinin müxtəlif təzahürləri ilə üz-üzəyik. Dünyanın texnoloji baxımdan qabaqcıl ölkələrində süni intellekt proqramları ilə idarə olunan robotlar yaradılıb və ayrı-ayrı sahələrdə konkret funksiyaları yerinə yetirirlər. Robotların cəmiyyət həyatında iştirakı və texnoloji prosesdə tətbiqi dairəsi qarşıdakı illərdə daha da genişlənəcəkdir. Belə bir gerçəklik insanın buna nə dərəcədə uyğunlaşa bilməsi və texnoloji biliklər nöqteyi-nəzərdən maarifləndirilməsi məqamlarını aktuallaşdırır.

Ümumiyyətlə, son illərdə informasiya texnologiyalarından bəhrələnən və internetin əsasını qoyduğu virtual aləmlə əhatə olunan insanlar üçün həyat tempinin intensivləşməsi, sürətlənən zaman axarı ilə hesablaşmaq, çoxşaxəli məlumat axınının təsirlərinə məruz qalaraq çevik reaksiya vermək, adekvat qərar qəbul etmək çətin sınaqlara çevrilir. Neyropsixoloqlar və neyrofizioloqların qənaətincə, insanın sosial-ictimai müstəvidə belə çoxsaylı dəyişikliyə uyğunlaşması uzun vaxt tələb edir. Sürətli həyat tərzi, informasiya basqısı müəyyən dərəcədə stress və fobiyaların yaranmasına səbəb ola bilər.

Hazırda internet dünya ölkələri və xalqları arasında qarşılıqlı bağlantıları əks etdirən, sərhəd tanımayan, müxtəlif mübadilə, müşahidə, hesablama, koordinasiya, axtarış, tədqiqat əməliyyatlarının aparıldığı, məkan və məsafə maneələrini aşan





virtual aləmdir. İnternetin mövcudluğu dünyada elə bir bağlılılıq və qarşılıqlı asılılıq yaradıb ki, virtual cazibə deyilən bir məfhum formalaşıb. Bu gün internetdə mütərəqqi informasiya bolluğu ilə yanaşı, təhlükəli və zərərli informasiyalar da yetərincədir. Terrorçu şəbəkələr, dini radikalizmi təbliğ edən dairələr, informasiya diversiyalarını həyata keçirməyi qarşıya məqsəd qoyan xüsusi qurumlar internetdən yararlanır, burada müxtəlif təxribatlara əl atırlar. Müxtəlif kriminal ünsürlər üçün də internetin geniş imkanları əlçatandır. Ona görə də internetdəki təhlükə mənbələrinin ayırd edilməsi və neytrallaşdırılması ictimai təhlükəsizlik mənafeyinin diqtə etdiyi vacib məsələlərdir.

Yaxın perspektivdə dünya ölkələri üçün hər sahədə informasiya texnologiyalarının mövcudluğu gerçəyi reallaşacaq. Bu o deməkdir ki, sadədən mürəkkəbə bir çox fəaliyyət növünü informasiya texnologiyaları idarə edəcəklər. İnsanların uzun zaman kəsiyində onları əhatə edən risk və təhlükələri diqqətdə saxlamaq vərdişlərini əvəzləmək üçün informasiya texnologiyaları yeni imkanlar açacaqlar. Bir tərəfdən, belə dəyişiklik insanlar üçün məişət komfortu şəraitini şərtləndirəcək, digər tərəfdən, onları kibercinayətkar qrupların texnologiyaların işinə kənardan müdaxilə etməklə, funksiyalarını pozmaq təhlükəsi ilə qarşı-qarşıya qoya bilər. İnformasiya texnologiyalarında cəmlənən insanın fərdi məlumatlarının qorunması problemi də baş verən dəyişikliklər fonunda ictimai əhəmiyyətli məqamlardan biri kimi nəzərdən keçirilir. Xüsusən, mobil telekommunikasiya vasitələrində “ağıllı idarəedici” mexanizmlərinin tətbiqi və yaxın gələcəkdə onların daha da təkmilləşdirilməsi insan-virtual aləm təmasında yeni-yeni xüsusiyyətləri ortaya çıxaracaqdır.

İnformasiya texnologiyalarının inkişaf etdirilməsi sahəsində rəqabət, ümumilikdə, elmi-texniki tərəqqiyə töhfələr verəcək proses kimi xarakterizə edilsə də, bəzi analitiklər bunun fəsadlarının da ola biləcəyini proqnozlaşdırırlar. Belə ki, hər bir texnologiyadan üç istiqamətdə istifadə olunması mümkündür: mülki, hərbi və kriminal. Hərbi sahədə texnoloji irəliləyiş üstünlük əldə etmək anlamına gəlir və bundan rəqiblərə qarşı sui-istifadə hallarının önlənməsi üçün texnoloji geriləmə istisnaedici faktora çevrilməlidir. Həmçinin, informasiya texnologiyalarına mükəmməl yiyələnən, lakin maddi və digər fərdi maraqları müqabilində kriminal şəbəkələrin xidmətində olan xakerlərin zərərsizləşdirilməsi də ictimai təhlükəsizlik tədbirlərinin vacib istiqaməti kimi yaxın perspektivdə də diqqət mərkəzində qalacaqdır. Çünki xakerlərin və yaxın illərdə süni intellektlə idarə ediləcək kiborqların informasiya texnologiyaları sistemlərinə kriminal, habelə digər mənfi məqsədlərlə müdaxiləsi bu çoxfunksional şəbəkədə pozuntular, xaotik vəziyyət, nəzarətdən çıxma kimi təhlükələrə yol açar. Bir anlıq təsəvvür edəndə ki, internet üzərindən işi qurulan informasiya texnologiyalarına giriş qapanıb və ya həmin sistemlərdə nizam, ahəng pozulub, bu, geniş miqyasda, eləcə də lokal çərçivədə işgüzar düzənin çökməsi, elektron mübadilələrin sıradan çıxması, nəqliyyat, naviqasiya, rabitə sektorlarının iflic vəziyyətinə düşməsi kimi ağır nəticələrin yaranması deməkdir. Beləliklə, informasiya texnologiyaları dövrü həm yeni inkişaf parametrlərini müəyyən edəcək, həm də cəmiyyətləri mürəkkəb texnoloji risklərlə qarşılaşdıracaqdır.

“Ağıllı telefon”, “ağıllı elektromobil”, “ağıllı iş ofisi”, yaxud “ağıllı ev-sığınacaq”, “ağıllı printerlər” və sair layihələrin həyata vəsiqə qazandığı rəqəmsal gerçəklik cəmiyyətlərin ənənəvi yaşayış modelini, insanların dünyagörüşünü köklü şəkildə dəyişikliyə uğradır. Bu proses təhsil, ixtisasartırma, peşə hazırlığı, təcrübə proqramlarının zamanın çağırışlarına uyğun təkmilləşdirilməsinə də təkan verir. Cəmiyyətlərdə bütün aparıcı sahələr üzrə peşəkarlıq meyarlarının təyin edilməsi informasiya texnologiyalarından kənar mümkün deyil.

Dinamik inkişaf hədəflərini qarşıya qoyan ölkəmizdə də informasiya-kommunikasiya texnologiyalarının tətbiqi genişlənir, bu sahədə sosial innovasiyaların rolu artır. Təqdirəlayiq haldır ki, respublikamız kosmik peyklərə malikdir və kosmosun tədqiq olunmasında iştirak edir. İnternetlə əhatəolma göstəricilərinə görə də dövlətimiz qabaqcıl mövqelərə sahiblənib. Paytaxt Bakıda nəqliyyatın intellektual idarəetmə forması həyata keçirilir. Respublikamızdan keçən nəqliyyat dəhlizlərindəki logistika sistemləri müasir informasiya texnologiyalarına əsaslanır. İKT üzrə innovasiyalar vətəndaşlara xidmət sektorunda da tam qərarlaşıb. Bütün bu müsbət addımlar ölkəmizin informasiya texnologiyaları dövründə uğurlu inkişafının vacib bünövrəsidir.

**Yalçın Abbasov**

# NİZAM-İNTİZAM VƏ MƏSULİYYƏT XİDMƏTİN ƏSASINI TƏŞKİL EDİR

Daxili Qoşunlarda xidməti, nizam-intizamı və məsuliyyəti ilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları çoxdur. Onlar barədə vaxtaşırı qəzetimizdə məlumat vermişik. Bu dəfə isə 17074 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından əsgər Azay Alışzadə və əsgər Famil Hüseynlidən bəhs edəcəyik.

Əsgər Famil Hüseynli 2000-ci ildə Ağdam rayonunda anadan olub. 2017-ci ildə Bakı şəhəri, Binəqədi rayonundakı 246 saylı tam orta məktəbin 11-ci sinfini bitirib və Bakı Neft Energetika Kollecinə daxil olub. 2018-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb və hal-hazırda Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin avtomobil taqımında sürücüdür. Xidməti vəzifələrini vicdanla, nizamnamələrin tələblərinə uyğun icra etdiyinə görə bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən ona “təşəkkür” elan olunub.

Avtomobil taqımının komandiri leytenant Nihat Qasımlı əsgər F.Hüseynlini müsbət xarakterizə edir. Onun bildirdiyinə görə, əsgər F.Hüseynli işinin məsuliyyətini dərk edir, xidməti vəzifələrini düzgün yerinə yetirir. Təhlükəsizlik qaydalarını bilir və şəxsi heyətin daşınması zamanı onlara ciddi əməl edir.

Digər hərbi qulluqçumuz əsgər Azay





Alışzadə isə 1998-ci ildə Bakı şəhərində doğulub. 2015-ci ildə 73 nömrəli tam orta məktəbi bitirib və Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olub. 2019-cu ildə Akademiyanı bitirdikdən sonra hərbi xidmətə çağırılıb. Hazırda 17074 saylı hərbi hissənin avtomobil taqımında sürücü vəzifəsindədir.

O, nizam-intizamlı əsgər və məsuliyyətli sürücüdür. Hər zaman avtomobil parkından çıxmazdan əvvəl avtomobilin sazlığını yoxlayır, parkda daxili qaydalara ciddi riayət edir.

Leytenant N.Qasımlı qeyd edir ki, sürücülərin nəqliyyat vasitələrini müxtəlif hava və yol şəraitlərində idarəetmə bacarığı olmalıdır. Onlar yolda yaranan vəziyyəti ani olaraq qiymətləndirməli, istənilən şəraitdə təhlükəsizliyi tam təmin edən qərar qəbul etməli və həyata keçirməlidirlər. Əsgər A.Alışzadə bu qaydaları bilir, avtomobili olduqca diqqətlə idarə edir və vəzifəsinin öhdəsindən layiqincə gəlir.

Hər iki hərbi qulluqçumuza hərbi xidmətlərində uğurlar arzulayırıq.

**gizir Ariz Aslanov**

*Sağlamlıq*

# Dadı acı olsa da...

Hələ qədim zamanlarda soğan həm ərzaq məhsulu, həm də dərman vasitəsi kimi istifadə olunurdu. Onu enerji, güc və cəsarət verən tərəvəz kimi döyüşçülərin qidasına əlavə edirdilər. Bir sıra xəstəliklərin müalicəsində soğanı tətbiq edən böyük loğman İbn Sina onun haqqında yazmışdı: “Soğan orqanizmi təmizləyir və zərərli şirələri xaric edir”.

AZƏRTAC xəbər verir ki, soğanın təsir xüsusiyyətlərinin əksər hissəsi onun tərkibində olan fitonsidlərlə əlaqədardır. Uçucu birləşmələr olan fitonsidlər nəinki patogen bakteriyalara, həmçinin göbələk və ibtidailərə də antimikrob təsir göstərir. Tərkibi kalium, kalsium, maqnezium və dəmir kimi minerallarla zəngindir.

Soğanın təzadlı təsir xüsusiyyətləri var: az yeyiləndə salatların içində ağız qoxusunu aparır, çox yeyiləndə isə xoşagəlməz qoxu yaradır. Az yeyəndə iştaha gətirir, çox yeyiləndə iştahkəsici təsir göstərir. Onun daha bir xüsusiyyəti damar mənfəzini genişləndirməsidir. Kapillyar damarlarda onun təsiri xüsusilə özünü daha tez göstərir. Ona görə də soğan dərinin qidalanması üçün çox faydalı, bütün dəri xəstəliklərinə şəfaverici təsir göstərir.



Qidasında ondan bol istifadə edənlərdə sellülit, çiban, komedon səpgilər, damarların varikoz genişlənməsi, dəri çatlamaları kimi hallar demək olar ki, müşahidə olunmur. Sağalmayan və ya gec sağalan furunkul və çibanlar zamanı bişmiş soğanın çiban nahiyəsinə qoyulması və yeyilməsi tövsiyə edilir. Onun tərkibində olan antibakterial maddələr furunkulun sağalmasını sürətləndirir və yenidən əmələ gəlməsinin qarşısını alır.

Bronxial astma xəstələrinin soğan yeməsi bronxların genişlənməsinə və tənəffüsün yaxşılaşmasına səbəb olur. Hər gün qidada soğandan istifadə edilməsi həzmi yaxşılaşdırır, köpü və qəbizliyi aradan qaldırır. Tərkibində olan C vitamini və qlükokinin maddəsi qanda şəkərin miqdarını aşağı salır. Ona görə də şəkərli diabet xəstələri soğandan bol-bol istifadə edə bilər.

Ağ soğan müalicə üçün istifadə edilənin ən yaxşısıdır. Qrip, haymorit və frontit kimi xəstəliklərdə buruna soğan suyu tökülür. 1 ədəd əzilmiş soğan yarım çay qaşığı soda ilə qarışdırılaraq saç diblərinə sürtülməsi yatmış folikulların oyanmasına və yeni saçların çıxmasına səbəb olur. Qulaqda iltihab, ağrı və küy olanda gündə iki dəfə soğan suyu tökmək məsləhətdir.

Angina və faringitlərdə 50 qram soğan suyu ilə 100 qram bal bir-birinə qarışdırılaraq gündə 3 xörək qaşığı kiçik qurtumlarla içilməsi xəstəliyin sağalmasını sürətləndirir.

Antimikrob və qurdqovucu xüsusiyyətləri olduğuna görə revmatizm və bağırsaq helmintozları ilə mübarizə məqsədilə yeyilməsi məsləhətdir.

Çox miqdarda, məsələn, birdəfəyə 2-3 ədəd soğan yemək zərərli hesab edilir. Kəskin mədə-bağırsaq yaralarında soğan çiy halda yeyilməməli və yalnız bişmiş halda istifadə edilməlidir.

# HƏRBİ XƏBƏRLƏR

**-YENİLİKLƏR -**

## “Airbus”un H160M helikopterləri 2025-ci ildə satışa çıxarılacaq

“Airbus Helicopters” 2025-ci ilə qədər H160M helikopterlərini hərbi bazarlarda satışa çıxaracaq. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə ABŞ-dakı helikopter istehsal edən müəssisələrindən birində keçirilən brifinq zamanı “Airbus Helicopters”in prezidenti Roman Trapp bildirib.

H160 helikopterlərinin kommersiya versiyası ilk dəfə “Heli Expo 2015”də təqdim edilib. Helikopter bu il Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyi (EASA) tərəfindən sertifikat alacaq, təqribən altı ay sonra ABŞ Federal Aviasiya İdarəsi (FAA) tərəfindən təsdiqlənəcək.

H160-dan əlavə, şirkət bir proqram çərçivəsində ABŞ ordusunu ayda iki dəfə UH-72A “Lakota” təlim helikopterləri ilə təmin edir.



# Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin komandanlığı və şəxsi heyəti leytenant İlkin İbadova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar Şurası **ehtiyatda olan baş gizir Kamran Həsənovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: Anar Əhmədov**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**